# ŞAHVERDİYEV İSRAFİL ŞAHVERDİ OĞLU



Şahverdiyev İsrafil 11 iyun 1952-ci ildə Laçın rayonunun Unannovu kəndində anadan olmuşdur. 1969-cu ildə doğma kəndlərində orta təhsilini başa vuraraq, 1971-1974-cü illərdə ordu sıralarında qulluq etmişdir. 1975-ci ildə Laçın rayon Daxili İşlər Şöbəsində milis nəfəri kimi fəaliyyətə başlamışdır. 1991-ci ildən vətənin müdafiəsinə qalxmış, ermənilərin tutulub zərərsizləşdirilməsində yaxından iştirak etmişdir. Salatın Əsgərovanın həyatına qəsd edən canilərin ələ keçirilməsində onun böyük əməyi olmuşdur. 1991-ci ilin yazında Qaladərəsi kəndi uğrunda döyüşdə, 1992-ci il sentyabrın 19-dan noyabrın 17-nə qədər Hocaz qayası və Hocaz kəndi uğrunda gedən döyüşlərdə iştirak etmiş və onlarla erməni silahlısını məhv etmişdir. Füzulidəki döyüşlərdə dəfələrlə kəşfiyyata göndərilmiş və uğurla geriyə qayıtmışdır. 6 yanvar 1994-cü ildə onun rotası Füzuli rayonunun kəndlərini işğaldan azad etmək üçün döyüşə girir. Rota Horadiz qəsəbəsini, eləcə də digər 4 kəndi ermənilərdən təmizləyir. 13 yanvarda rota bir neçə istiqamətdən hücuma keçir, düşmənin əsas qüvvəsini sarsıdır. Bu döyüşdə İ.Şahverdiyev yaralı döyüşçülərimizə kömək etmək üçün pulemyotu işə salır. Bu an qarşı tərəfdən atılan mərmi onun həyatına son qoyur. Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ailəli idi. Üç övladı yadigar qalıb. Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1995-ci il tarixli 262 saylı Fərmanı ilə Şahverdiyev İsrafil Şahverdi oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Laçın rayonu Ağanus kənd tam orta məktəbi 1996-cı ildən qəhrəmanın adını daşıyır.